**«TƏSDİQ EDİLMİŞDİR»**
Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi

Əmr 045
«24» mart 2000-cı il

Sədr _______________ H. Babayev

(10 iyul 2001-ci il tarixli 070 №-li Əmrin redaksiyasında)

# Azərbaycan Respublikasında qiymətli kağızlar bazarında sığorta STANDARTLARI

1. Ümumi müddəalar.

1.1. Bu Standartlar «Qiymətli kağızlar haqqında», «Sığorta haqqında» Azərbaycan Respublikası Qanunlarına və Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1999-cu il tarixli 161 nömrəli Fərmanına ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında» Əsasnaməyə müvafiq hazırlanmışdır.

1.2. Bu Standartlar Azərbaycan Respublikasının ərazisində qiymətli kağızlar bazarında sığorta standartlarını müəyyən edir.

2.Qiymətli kağızlar bazarında sığorta növləri.

2.1. Qiymətli kağızlar bazarında sığorta qeyri-həyat sığorta sahəsinə aiddir.

2.2. Qiymətli kağızlar bazarında aşağıdakı sığorta növləri mövcuddur:

2.2.1. qiymətli kağızların əmlak sığortası;

2.2.2. qiymətli kağızlarla bağlı maliyyə risklərinin sığortası;

2.2.3. qiymətli kağızlar bazarında peşəkar məsuliyyətin sığortası.

3.Qiymətli kağızların sığortasına tələblər.

3.1 Qiymətli kağızların əmlak sığortası qiymətli kağızlara dəyən zərərin tam və ya qismən ödənilməsi üzrə sığortaçının vəzifələrini nəzərdə tutur.

3.2. Qiymətli kağızların sığorta növlərinə fiziki itki və məhv təhlükəsindən, oğurluqdan, daşınma ilə bağlı təhlükədən və başqa növ sığortalar aiddir.

3.3. Qiymətli kağızlar başqa daşınar və daşınmaz əmlakla birgə sığortalana bilməz.

Qiymətli kağızların sığortalanması tərəflərin razılığı əsasında həyata keçirilir və ayrıca müqavilə vasitəsilə rəsmiləşdirilir.

3.4. Sığortalıya məxsus olmayan qiymətli kağızlar, sığortalının özünün siyahısından ayrı olaraq, xüsusi siyahı üzrə sığortalanmalıdır.

3.5. Sığorta məbləği tərəflərin razılığı ilə müqavilə əsasında rəsmiləşdirilir.

3.3.6. Qiymətli kağızlar sığortaçının sığorta tarifləri üzrə sığortalanır.

3.7. Eyni qiymətli kağızların eyni şəxs tərəfindən eyni risklər üzrə ayrı-ayrı müqavilələrlə bir neçə sığortaçıda sığortalanması qadağandır.

3.8. Qiymətli kağızları şərikli sığorta və təkrar sığorta yolu ilə sığortalanmasına yol verilir.

4. Qiymətli kağızlarla bağlı maliyyə risklərinin sığortalanmasına dair tələblər.

4.1. Qiymətli kağızlar üzrə maliyyə risklərinin sığortalanması, sığortalıya dəyən ziyanın tam və ya qismən sığorta ödənişləri vasitəsilə ödənilməsi üzrə sığortaçının öhdəliklərini nəzərdə tutur.

4.2. Qiymətli kağızlar üzrə maliyyə risklərinin sığortalanmasına aşağıdakı hadisələr üzrə sığortalanmalar aiddir:

4.2.1. qiymətli kağızlar bazarında investorlara dəymiş ziyanların sığortalanması;

4.2.2. qiymətli kağızların buraxılışının və yerləşdirilməsinin sığortalanması;

4.2.3. iflasdan sığortalanma;

4.2.4. əqdlər üzrə kreditor olan sığortalının kontragentinin müqavilə öhdəliklərinin yerinə yetirilməməsinin (lazımi qaydada yerinə yetirilməməsinin) sığortalanması;

4.2.5. və başqa hadisələr.

4.3. Qiymətli kağızlarla maliyyə risklərinin sığortasını həyata keçirmək üçün qanunvericiliklə müəyyən edilmiş miqdarda sığorta təşkilatının nizamnamə kapitalının həcmi 200 mln. manatdan az olmamalıdır. Nizamnamə fondunun 20%

təşkil edən xüsusi təminatın olması zəruridir.

4.4.4. Sığortaçının ayrıca sığortaladığı maliyyə riski üzrə olan maksimal məsuliyyəti sığortaçının nizamnamə kapitalının 10%-dən çox olmamalıdır.

5. Qiymətli kağızlar bazarında peşəkar məsuliyyətin sığortalanması.

5.1. Qiymətli kağızlar bazarında peşəkar məsuliyyətin sığortalanması qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin aparılması ilə bağlı sığortalıya dəyən zərərin sığortaçı tərəfindən tam və ya qismən ödənilməsini nəzərdə tutur və Azərbaycan Respublikasının qiymətli kağızlar bazarında mövcud olan hər bir peşəkar fəaliyyət növü üzrə aparıla bilər.

6. Qiymətli kağızlar bazarında sığorta fəaliyyətinin aparılmasınnın şərtləri.

6.1. Qiymətli kağızlar bazarında sığorta fəaliyyətinin ilə məşğul olmaq istəyən şəxs həmin fəaliyyətə başladıqdan əvvəl Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə məlumat verməlidir.

6.2 Məlumatda şəxsin tam adı, dövlət qeydiyyatına alındığı tarix, sığorta fəaliyyətinə lisenziyanın qeydiyyat nömrəsi və verilmə tarixi lisenziyanı verən orqanın adı, şəxsin nizamnamə kapitalının həcmi və bank rekvizitləri göstərilməlidir.

7 Məsuliyyət.

7.1. Bu Standartlarda təsbit olunmuş müddəaları pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

8.Qüvvəyə minməsi.

8.1. Bu Standartlar təsdiq olunduğu gündən qüvvəyə minir.